*2023-cü il 7 mart vəziyyəti ilə*

# Gürcüstan Qanunu

## Ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında

### Maddə 1. Qanunun məqsədi

Bu qanunun məqsədi ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaq və hər hansı fiziki və hüquqi şəxs üçün Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş hüquqlardan bərabər şəkildə istifadə edilməsini - irqindən, dəri rəngindən, dilindən, cinsiyyətindən, yaşından, vətəndaşlığından, mənşəyindən, doğum yerindən, yaşayış yerindən, əmlak və ya rütbə vəziyyətindən, dinindən və ya əqidəsindən, milli, etnik və ya sosial mənsubiyyətindən, peşəsindən, ailə vəziyyətindən, sağlamlıq vəziyyətindən, məhdud imkanlılığından, seksual oriyentasiyasından, gender kimliyindən və ifadəsindən, siyasi və ya digər baxışından və ya digər əlamətindən asılı olmayaraq - təmin etməkdir.

### Maddə 2. Ayrı-seçkilik anlayışı. Ayrı-seçkiliyin qadağan edilməsi

1. Gürcüstanda hər növ ayrı-seçkilik qadağandır.
2. Birbaşa ayrı-seçkilik elə rəftar etmək və ya elə şərait yaratmaqdır, hansı ki şəxsi (insanı) Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş hüquqlardan istifadə edərkən bu qanunun birinci maddəsi ilə nəzərdə tutulmuş hər hansı əlamətə görə - oxşar vəziyyətdə olan digər şəxslərlə müqayisədə əlverişsiz vəziyyətə salır və ya mahiyyətcə qeyri-bərabər şəraitdə olan şəxsləri bərabər vəziyyətə salır, o hal istisna olmaqla – nə vaxt ki, bu cür rəftar və ya bu cür şəraitin yaradılması ictimai asayişin və mənəviyyatın (əxlaqın) qorunması üçün qanunla müəyyən edilmiş məqsədə xidmət edir, obyektiv və ağlabatan əsaslandırmaya malikdir və demokratik cəmiyyətdə zəruridir, istifadə olunan vasitələr isə belə bir məqsədə nail olmaq (çatmaq) üçün mütənasibdir.
3. Dolayı ayrı-seçkilik elə vəziyyətdir – nə vaxt ki, forma baxımından neytral və mahiyyətcə ayrı-seçkilikli müddəa, meyar və ya praktika şəxsi (insanı) bu qanunun birinci maddəsi ilə nəzərdə tutulmuş hər hansı əlamətə görə - oxşar vəziyyətdə olan digər şəxslərlə müqayisədə əlverişsiz vəziyyətə salır və ya mahiyyətcə qeyri-bərabər şəraitdə olan şəxsləri bərabər vəziyyətə salır, o hal istisna olmaqla – nə vaxt ki, bu cür rəftar və ya bu cür şəraitin yaradılması ictimai asayişin və mənəviyyatın (əxlaqın) qorunması üçün qanunla müəyyən edilmiş məqsədə xidmət edir, obyektiv və ağlabatan əsaslandırmaya malikdir və demokratik cəmiyyətdə zəruridir, istifadə olunan vasitələr isə belə bir məqsədə nail olmaq (çatmaq) üçün mütənasibdir.
4. $3^{1}$. Sıxışdırmaq (daraltmaq) - hər hansı əlamətlə insanı (şəxsi) təqib etmək, məcbur etmək və/və ya şəxsə qarşı arzuolunmaz davranışdır, hansı ki şəxsin ləyaqətinə zərər vurmaq məqsədi daşıyır və onun üçün qorxuducu, düşmənçilik, alçaldıcı, ləyaqətə xələl gətirən və ya təhqiredici mühitin yaradılmasına səbəb olur.
5. $3^{2}$. Seksual sıxışdırma seksual xarakterli hər hansı arzuolunmaz şifahi (sözlü), qeyri-şifahi və ya fiziki davranışdır, hansı ki şəxsin ləyaqətinə zərər vurmaq məqsədi daşıyır və ya onun üçün qorxuducu, düşmənçilik, alçaldıcı, ləyaqətə xələl gətirən və ya təhqiredici mühitin yaradılmasına səbəb olur.

3². Dövlət, ,,Məhdud imkanlı şəxslərin hüquqları haqqında" Gürcüstan Qanununa əsasən, ağlabatan uyğunlaşdırmanı təmin etmək üçün bütün mümkün tədbirləri görür. Ağlabatan uyğunlaşdırmadan əsassız imtina da ayrı-seçkilik sayılacaq.
4. Bir çox əlamətə görə ayrı-seçkilik iki və ya daha çox əlamətə görə ayrı-seçkilikdir.
5. Şəxsi məcbur etmək, təhrik etmək (qızışdırmaq) və ya təşviq etmək və/və ya ona bu maddədə nəzərdə tutulmuş ayrı-seçkiliyi üçüncü şəxsə qarşı həyata keçirmək tapşırığı vermək məqsədi daşıyan hər hansı hərəkət (əməl) qadağandır.
6. Bu maddə ilə müəyyən edilmiş şərtlərdə ayrı-seçkilik - şəxsdə bu qanunun birinci maddəsi ilə nəzərdə tutulmuş əlamətin həqiqətən olub-olmamasından asılı olmayaraq - mövcuddur, hansına görə ki ona qarşı ayrı-seçkilik hərəkəti (əməli) həyata keçirilib.
7. Ayrı-seçkilik xüsusi və müvəqqəti tədbirlər deyil, hansılar ki faktiki bərabərliyi təşviq etmək və ya ona nail olmaq üçün hazırlanmışdır, xüsusən - gender, hamiləlik və analıq məsələlərində, həmçinin məhdud imkanlı şəxsə qarşı.
8. Spesifik tələblərə əsaslanan müəyyən bir iş, fəaliyyət və ya sahə ilə bağlı hər hansı fərq, yolverilməzlik və üstünlük ayrı-seçkilik hesab edilmir.
9. Əgər dövlətin qarşısıalınmaz marağı varsa və demokratik cəmiyyətdə dövlətin müdaxiləsi zəruridirsə - fərqli rəftara, şərait yaratmağa və/və ya vəziyyətə yol verilir.
10. Bərabər rəftar prinsipi aşağıdakılara da şamil olunur:
a) əmək münasibətlərinə və müqavilə öncəsi münasibətlərə, o cümlədən:
a.a) müqavilə öncəsi münasibət zamanı seçim meyarlarına və kirayəyə götürmək şərtlərinə, həmçinin karyera irəliləyişinin əlçatanlığına, peşə iyerarxiyasının bütün pillələrinə - fəaliyyət sahəsindən asılı olmayaraq;
a.b) peşə iyerarxiyasının bütün pillələrində peşə oriyentasiyasının (peşə yönümlülüyünün), ixtisasın artırılmasının, peşə hazırlığının və yenidən hazırlanmanın bütün formalarının (praktik peşə təcrübəsi daxil olmaqla) əlçatanlığına;
a.q) məşğulluq, əmək, əmək haqqının ödənilməsi və əmək münasibətinə xitam verilməsi şərtlərinə;
b) işlə təmin olunmuşlar təşkilatının, işlə təmin edənlər təşkilatının və ya elə təşkilatın üzvlüyünə və fəaliyyətinə, hansının ki üzvləri müəyyən bir peşə qrupuna aiddirlər, bu təşkilatlardan alınan fayda da daxil olmaqla;
q) sosial müdafiə və səhiyyə şərtlərinə, təhsilə, malın və xidmətin çatdırılmasına, o cümlədən:
q.a) sosial müdafiəyə, sosial təminata, sosial güzəştlərə və s.;
q.b) səhiyyə xidmətinə;
q.q) təhsilin əlçatanlığına;
q.d) ictimaiyyət üçün əlçatan malı və xidməti almağa (mənzil daxil olmaqla).
11. Bu maddənin 10-cu bəndinin "q" alt bəndi çərçivəsində bərabər rəftar prinsipi, eyni bəndin "q.a" - "q.d" alt bəndlərində göstərilən sahələrin xüsusiyyətləri nəzərə alınmaqla, Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara və şərtlərə uyğun olaraq tətbiq edilir.
Gürcüstanın 19 fevral 2019-cu il tarixli qanunu *№4281 – veb-səhifə, 25.02.2019-cu il*
Gürcüstanın 14 iyul 2020-ci il tarixli qanunu *№6827 – veb-səhifə, 28.07.2020-ci il*

**Maddə 3. Qanunun qüvvəsinin əhatə dairəsi**

Bu qanunun tələbləri dövlət qurumlarının, təşkilatların, fiziki və hüquqi şəxslərin hərəkətlərinə (əməllərinə) bütün sahələrdə şamil edilir, ancaq yalnız o halda - əgər bu hərəkətlər bu qanunun 2-ci maddəsinin 2-ci və 3-cü bəndlərinə uyğun olan başqa hüquqi aktla tənzimlənmirsə.

**Maddə 4. Ayrı-seçkiliyin aradan qaldırılması üçün həyata keçirilməli tədbirlər**

Ayrı-seçkiliyin aradan qaldırılması üçün hər hansı qurum aşağıdakıları etməyə borcludur:

a) öz fəaliyyətini, habelə hüquqi aktları və daxili tənzimləmələri, əgər onlar varsa, bu qanuna və ayrı-seçkiliyə qarşı digər qanunvericiliyə uyğunlaşdırsın;
b) ehtimal olunan hər hansı ayrı-seçkilik faktına tez və effektiv reaksiya (cavab) versin;
q) ayrı-seçkilik faktı təsdiq edildikdə, onun tabeliyində olan pozucu şəxsə Gürcüstan qanunvericiliyinə və daxili tənzimləmələrə uyğun olaraq məsuliyyət tətbiq etsin və üçüncü şəxsin hüquqlarına və qanuni maraqlarına xələl gətirmədən ayrı-seçkilik nəticələrinin aradan qaldırılmasını təmin etsin.

**Maddə 5. Bu qanunun interpretasiya (təfsir) qaydası və əhatə dairəsi**

1. Bu qanunun heç bir müddəası dini birləşmə üçün din azadlığından irəli gələn hüquqların (o cümlədən, dini xidmət hüququnun) məhdudlaşdırılmasını nəzərdə tutmuş kimi izah edilə bilməz - o şərtlə ki, bu hüquqlardan istifadə ictimai asayişi, ictimai təhlükəsizliyi və/və ya başqalarının hüquqlarını pozmayacaq.
2. Bu qanunun heç bir müddəası Gürcüstan Konstitusiyasına və “Gürcüstan Dövləti və Gürcüstan Apostol Avtokefal Pravoslav Kilsəsi arasında“ Konstitusiya sazişinə zidd olacaq kimi izah edilə bilməz.
3. Ayrı-seçkiliyi aradan qaldırmaq üçün həyata keçirilmiş tədbirlər və ya bu qanunun birinci maddəsində nəzərdə tutulmuş hər hansı bir əlamətə malik olan şəxsin və ya şəxslər qrupunun öz hüquqlarını həyata keçirməsi/qoruması ictimai asayişi, ictimai təhlükəsizliyi və/və ya başqalarının hüquqlarını pozmamalıdır.
4. Bu qanunla müəyyən edilmiş hüquqlardan elə istifadə etmək qadağandır ki, o - bu qanunun birinci maddəsində nəzərdə tutulmuş hər hansı əlamətə malik olan şəxslər və ya şəxs qrupları arasında nifaqı (düşmənçiliyi) qızışdırmaq məqsədi daşısın və ya buna səbəb olsun.
5. Bu qanunun heç bir müddəası Gürcüstan parlamenti tərəfindən ratifikasiya olunmuş beynəlxalq müqavilə ilə müəyyən edilmiş hər hansı hüququ və ya azadlığı etibarsız (heç) hesab edəcək şəkildə və ya bu müqavilənin özündə nəzərdə tutulduğundan artıq məhdudlaşdıracaq şəkildə izah edilə bilməz.

**Maddə 6. Ayrı-seçkiliyin aradan qaldırılmasına və bərabərliyin təmin edilməsinə nəzarətin həyata keçirilməsi**

1. Ayrı-seçkiliyin aradan qaldırılmasına və bərabərliyin təmin edilməsinə nəzarəti Gürcüstanın Xalq Müdafiəçisi (Ombudsman) həyata keçirir.
2. Gürcüstan qanunvericiliyi ilə verilmiş səlahiyyətləri həyata keçirmək üçün Gürcüstanın Xalq Müdafiəçisi:

a) özünü ayrı-seçkiliyin qurbanı hesab edən fiziki və ya hüquqi şəxsin və ya şəxslər qrupunun ərizəsinə və şikayətinə baxır;
b) ayrı-seçkilik faktını həm ərizə və ya şikayət olduqda, həm də öz təşəbbüsü ilə öyrənir (araşdırır) və müvafiq tövsiyə verir;
q) ayrı-seçkiliyin qarşısının alınması və ona qarşı mübarizə məsələlərinə dair ümumi təklifləri hazırlayır və müvafiq quruma və ya şəxsə göndərir;

d) bu qanunun məqsədləri üçün zəruri qanunvericilik dəyişiklikləri barədə mülahizələr hazırlayır və onları qanunvericilik təklifi olaraq Gürcüstan parlamentinə təqdim edir;

e) ayrı-seçkilik qurbanını və ayrı-seçkilik aktını həyata keçirdiyi iddia edilən şəxsi dəvət edir (çağırır) və işi tərəflərin razılığa gəlməsi yolu ilə başa çatdırmağa çalışır;

v) işi razılığa gəlmək yolu ilə başa çatdırmaq mümkün olmadıqda və əgər ayrı-seçkiliyi sübut edən kifayət qədər materiallar varsa - ayrı-seçkilik qurbanının hüquqlarını bərpa etmək üçün müvafiq quruma və ya şəxsə tövsiyə ilə müraciət edir;

z) inzibati orqan onun tövsiyəsinə cavab vermədikdə və ya bu tövsiyəni paylaşmadıqda və əgər ayrı-seçkiliyi sübut edən kifayət qədər dəlillər varsa – marağı olan şəxs kimi Gürcüstan İnzibati Prosessual Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət etmək və inzibati-hüquqi aktın verilməsini və ya hərəkətin (əməlin) həyata keçirilməsini tələb etmək səlahiyyətinə malikdir;

t) ayrı-seçkilik faktları haqqında statistik məlumatları qeydə alır və təhlil edir;

i) ayrı-seçkilik məsələləri haqqında cəmiyyətin şüurluluğunu yüksəltmək üçün tədbirlər həyata keçirir;

k) ayrı-seçkilik məsələlərində beynəlxalq dövlət və qeyri-hökumət təşkilatları, yerli qeyri-hökumət təşkilatları və mülki (vətəndaş) cəmiyyətin nümayəndələri ilə əməkdaşlıq edir.

**Maddə 7. Gürcüstanın Xalq Müdafiəçisinin xüsusi hesabatı**

1. Gürcüstanın Xalq Müdafiəçisi ildə bir dəfə ölkədə ayrı-seçkiliyə qarşı mübarizə, onun qarşısının alınması və bərabərlik vəziyyəti haqqında xüsusi hesabat hazırlayır və dərc edir.
2. Gürcüstanın Xalq Müdafiəçisinin xüsusi hesabatında ölkədə ayrı-seçkiliyə qarşı mübarizə, onun qarşısının alınması və bərabərlik vəziyyəti haqqında ümumi qiymətləndirmələr, rəylər (nəticələr) və tövsiyələr, habelə aşkar edilmiş əhəmiyyətli pozuntular və həyata keçirilmiş tədbirlər haqqında məlumat olmalıdır.

**Maddə 8. Gürcüstanın Xalq Müdafiəçisi tərəfindən işin müzakirəsi**

1. Ərizə ilə/şikayətlə Gürcüstanın Xalq Müdafiəçisinə müraciət edən şəxs ayrı-seçkilik hərəkətinin (əməlinin) həyata keçirilməsi ehtimalına əsas verən faktları göstərməlidir və müvafiq materialları təqdim etməlidir.

2. Şəxs Gürcüstanın Xalq Müdafiəçisinə ayrı-seçkilik hərəkətinin (əməlinin) həyata keçirilməsi ehtimalına əsas verən faktları və müvafiq sübutları (dəlilləri) təqdim etməlidir, bundan sonra isə iddia edilən ayrı-seçkilik hərəkətini (əməlini) törədən şəxs ayrı-seçkiliyin baş vermədiyini sübut etmək yükünü daşıyır.

3. Əgər Gürcüstanın Xalq Müdafiəçisi lazımi hesab edirsə - o, şifahi dinləmə təyin etmək və tərəfləri işi razılığa gəlmək yolu ilə başa çatdırmağa dəvət etmək (çağırmaq) səlahiyyətinə malikdir. İş razılığa gəlmək yolu ilə başa çatdıqda, Gürcüstanın Xalq Müdafiəçisi razılıq aktı ilə müəyyən edilmiş öhdəliklərin yerinə yetirilməsinin monitorinqini həyata keçirir.

4. Hər hansı inzibati, dövlət hakimiyyəti (o cümlədən prokurorluq, istintaq, məhkəmə orqanı) və bələdiyyə orqanı işə baxılması ilə bağlı materialı, sənədi, izahatı və digər məlumatları - qanunla müəyyən edilmiş qaydalara riayət etməklə - tələbdən sonra 10 təqvim günü müddətində Gürcüstanın Xalq Müdafiəçisinə verməyə borcludur. Əgər məlumat özəl şəxsdən könüllü olaraq alınırsa, məlumatın verilməsi ilə bağlı surəti çıxarmaq və poçt xidməti xərcləri ona öz tələbi əsasında ödənilə bilər.

5. Gürcüstanın Xalq Müdafiəçisi ərizəyə/şikayətə Gürcüstan qanunvericiliyi ilə müəyyən edilmiş qaydada baxır.

Gürcüstanın 15 iyul 2020-ci il tarixli qanunu *№6877 – veb-səhifə, 28.07.2020-ci il*

**Maddə 9. Gürcüstanın Xalq Müdafiəçisi tərəfindən qərar qəbul edilməsi**

1. Gürcüstanın Xalq Müdafiəçisi işin icraatını dayandırır - əgər iddia edilən ayrı-seçkiliyin eyni faktına görə:
a) mübahisəyə (davaya) məhkəmə baxırsa;
b) inzibati icraat davam edirsə;
q) cinayət təqibi davam edirsə.
2. Gürcüstanın Xalq Müdafiəçisi işin icraatına xitam verir - əgər iddia edilən ayrı-seçkiliyin eyni faktına görə:
a) iş üzrə məhkəmə qərarı varsa;
b) ərizəyə/şikayətə baxılması nəticəsində ayrı-seçkilik faktı təsdiqlənmədisə.
3. Əgər Gürcüstanın Xalq Müdafiəçisinin ərizəyə/şikayətə baxması nəticəsində ayrı-seçkilik faktı təsdiqlənibsə və ayrı-seçkiliyin nəticələri aradan qaldırılmayıbsa - Gürcüstanın Xalq Müdafiəçisi, işin hallarını nəzərə alaraq, pozulmuş bərabərliyin bərpası üçün tədbirlərin həyata keçirilməsi haqqında tövsiyə verməklə işin icraatını yekunlaşdırır.

**Maddə 10. Məhkəməyə şikayət ərizəsi ilə müraciət etmək**

1. Özünü ayrı-seçkilik qurbanı hesab edən hər hansı şəxs - fikrincə, ona qarşı ayrı-seçkilik etmiş şəxsin/qurumun əleyhinə məhkəməyə şikayət ərizəsi vermək və mənəvi və/və ya maddi zərərin ödənilməsini tələb etmək hüququna malikdir.

2. Məhkəməyə şikayət ərizəsi ilə müraciət etmək qaydası Gürcüstan Mülki Prosessual Məcəlləsi ilə müəyyən edilir.

**Maddə 11. İşə baxılması prosesində üçüncü şəxsin iştirakı**

1. Fəaliyyət sahəsi şəxsləri ayrı-seçkilikdən qorumaq olan təşkilat, qurum və ya birlik - bu qanunla nəzərdə tutulmuş işə baxılması prosesinə üçüncü şəxs kimi cəlb edilməsi tələbi ilə Gürcüstanın Xalq Müdafiəçisinə müraciət etmək hüququna malikdir.
2. Gürcüstanın Xalq Müdafiəçisi bu maddənin birinci bəndində nəzərdə tutulmuş tələbi, yalnız özünü ayrı-seçkiliyin qurbanı hesab edən şəxsin razılığı olduğu halda, təmin etmək səlahiyyətinə malikdir.

**Maddə 12. Qanunla müəyyən edilmiş prosedurların həyata keçirilməsi zamanı şəxslərin müdafiəsi (şəxsləri qorumaq)**

1. Ayrı-seçkilikdən qorunmaq üçün müvafiq orqana ərizə və ya şikayət ərizəsi ilə müraciət və ya onunla əməkdaşlıq etdiyi üçün hər hansı şəxsə qarşı hər cür mənfi (neqativ) rəftar və ona təsir göstərmək qadağandır.
2. Bu qanunla müəyyən edilmiş prosedurları həyata keçirərkən və bundan sonra da müvafiq orqan, „Şəxsi (fərdi) məlumatların qorunması haqqında" Gürcüstan Qanununa uyğun olaraq, ayrı-seçkiliyin qurbanı ilə bağlı şəxsi məlumatların məxfiliyini təmin etməlidir. Qanunla birbaşa müəyyən edilmiş hallar istisna olmaqla, ayrı-seçkiliyin qurbanının razılığı olmadan bu cür məlumatların üçüncü şəxsə verilməsi (çatdırılması) qadağandır.
3. Bu maddənin tələbləri yerinə yetirilmədiyi təqdirdə, ayrı-seçkiliyin qurbanı Gürcüstanın Xalq Müdafiəçisinə ərizə ilə müraciət etmək hüququna malikdir.

**Maddə 13. Qanunun qüvvəyə minməsi**

Bu qanun dərc edildikdən dərhal sonra qüvvəyə minsin.

Gürcüstan prezidenti Qiorqi Marqvelaşvili

**Kutaisi,**

**2 may 2014-cü il.**

**N2391-IIs**

**http://www.matsne.gov.ge**